**Əməkdaşlıq fəaliyyətləri**

- AQTA ilə Serbiya Respublikasının Kənd Təsərrüfatı, Meşəçilik və Su Təsərrüfatı Nazirliyi arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində birbaşa əlaqələr qurulmuş, əməkdaşlığın dərinləşdirilməsi üzrə mütəmadi görüşlər və texniki mübadilələr həyata keçirilir.
- **2025-ci il 23 oktyabr** tarixində Serbiyanın paytaxtı Belqrad şəhərində baş tutmuş "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya"nın 9-cu iclası və Azərbaycan-Serbiya biznes forumunda Agentliyin nümayəndəsinin iştirakı təmin olunmuşdur. İclasın yekununda imzalanmış Protokolda qida təhlükəsizliyi sahəsində əməkdaşlığa dair bənddə qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində əməkdaşlığın genişləndirilməsi, eləcə də "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Sazış"in imzalanması üzrə işlərin yekunlaşdırılması kimi müddəalar əlavə olunmuşdur.
- **2024-cü il 25 iyul** tarixində Bakı şəhərində keçirilmiş "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya"nın 8-ci iclasında Agentliyin nümayəndəsinin iştirakı təmin olunmuşdur.
- **2023-cü ilin 20 sentyabr** tarixində iribuynuzlu heyvanların damazlıq və istifadəsi üzrə baytarlıq sertifikatı razılaşdırılmışdır.
- **2023-cü il 28 aprel** tarixində Serbiya Respublikasının Belqrad şəhərində keçirilmiş "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya"nın 7-ci iclasında Agentlik sədrinin müavini Komissiyanın üzvü kimi iştirak etmişdir. İclas çərçivəsində Serbiya Respublikasının Kənd Təsərrüfatı, Meşə və Su Təsərrüfatı Nazirliyinin nümayəndələri ilə görüş keçirilmişdir.
- **2019-cü ilin 3 iyun** tarixində it və pişik yemləri üzrə baytarlıq sertifikatı razılaşdırılmışdır.
- Müvafiq sahələrdə əməkdaşlığın təşviqi, normativ bazanın təkmilləşdirilməsi məqsədilə Agentlik tərəfindən hazırlanaraq təqdim olunmuş "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" saziş layihəsi Serbiya tərəfi ilə razılaşdırılmışdır. Adıçəkilən sənədin mümkün səfərlər zamanı imzalanması nəzərdə tutulur.